**Leyla Xəlilova**

***Orda bir şəhər var adı Xocalı***

Dözəkmi taleyin bu kələyinə,
Beləmi yazılıb yazılan yazı,
O dağda axıbdı qan su yerinə,
O dağın laləsi qandan qırmızı.
Orda təpələrin ürəyində dağ,
Qandı dörd tərəfi, yamacı, yalı,
Orda bir diyar var, adı Qarabağ,
Orda bir şəhər var, adı Xocalı.
Daha körpələri nəğmə oxumur,
Nəğməli körpələr vaxtsız soldular,
Nişanlı qızları corab toxumur,
Nişanlı oğlanlar şəhid oldular.
Ölümlü, qalımlı bu qalmaqalda
Nifrətim, qəzəbim uyuyur hələ,
Sahibsiz itləri gözləri yolda,
Sahibsiz yurdları qoruyur hələ.
Sərsəri küləklər itirib başın,
Nakam arzuların əlləri göyə,
Qapqara buludlar tökür göz yaşı,
Qəbirsiz ölülər üzü qibləyə.
Orda igid ölüb sinəsində dağ,
Orda gəlin ölüb əli xınalı,
Orda bir diyar var, adı Qarabağ,
Orda bir şəhər var, adı Xocalı.

***Xəlilova L. Orda bir şəhər var Xocalı : şeir // Azərbaycan. - 2011. - № 9. - S. 10-13.***